**Məhəmmədəli Elman oğlu DADAŞOV**
Azərbaycan Milli Elmlər Akademiyasının doktorantı
E-mail: dadasovmuhammadali@gmail.com
ORCID ID: 0009-0005-4944-9372

# HƏQİQƏTDƏN POSTHƏQİQƏTƏ: TERMİNOLOJİ DƏYİŞKƏNLİK VƏ MƏDƏNİ TRANFORMASİYA

**Xülasə**

İlk dəfə 1992-ci ildə S. Tesich tərəfindən elmi ədəbiyyata daxil edilmiş posthəqiqət anlayışı insanların obyektiv faktlardan daha çox hiss və emosiyalara dayanaraq formalaşdırdıqları şəxsi qənaətlərinə üstünlük verməsi ilə səciyyələnən sosial vəziyyəti ifadə edir. İnformasiya bolluğu, kütləvi dezinformasiyalar, məlumat və bilik arasındakı sərhədlərin pozulması post həqiqət çağın xarakterik xüsusiyyətləridir. Tənqidi düşüncənin zəiflədiyi bu dövrdə insanlar böyük informasiya kütləsi ilə qarşı-qarşıya gəlir və irrasional davranaraq özlərinə uyğun hesab etdikləri məlumatları heç bir analitik düşüncə yürütmədən qəbul edirlər. Sosial media platformaları isə həqiqəti transformasiyaya uğradan cəmiyyətin istehsal etdiyi yalan və saxta xəbərləri yayan əsas texnoloji vasitə kimi çıxış edir. İnsanlar duyğuları vasitəsilə bu və ya digər informasiyanın həqiqiliyi haqqında qənaətə gəldikdə onları sosial mediada bəyənir və paylaşaraq digər insanları da bu informasiyanın həqiqiliyinə inandırır. Beləliklə, yalan olmasına baxmayaraq hər hansı xəbərin böyük kütlə tərəfindən qəbul edilməsi cəmiyyətdə “saxta həqiqət” anlayışını meydana gətirir. Bu araşdırma posthəqiqət anlayışının mənası və mahiyyətinə, habelə həqiqətin gerçəklik və doğruluq anlayışları ilə əlaqəsinə diqqət çəkməklə “Post-truth” ifadəsinin dilimizə doğru tərcüməsini formalaşdırır. Məqalədə həmçinin “post” ön şəkilçisinin semantik mənası araşdırılmış, posthəqiqət anlayışının “həqiqətdən sonra” anlamına gəlmədiyi, daha çox həqiqətin əvvəlki nüfuzunu itirməsi və transformasiyası mənasında işləndiyi vurğulanıb.

**Açar sözlər:** posthəqiqət, gerçəklik, doğruluq, yalan, sosial media.

**UOT:** 141.78: 001.8: 303
**DOI:** https://doi.org/10.54414/RQDF3774

## Giriş

İnsanlar təbiəti etibarilə bilmək istəyərlər. [1, s.35] . Tarixin hər halqasında həqiqət axtarışında olan insanlar müxtəlif dövrlərdə həqiqəti müxtəlif cür mənalandırmış, bəzən onu gerçəkliyə uyğunluq ilə, bəzən faydalılıq dərəcəsi ilə əlaqələndirmiş, postmodernizm dövründən etibarən isə həqiqəti subyektin özü ilə bağlı fenomen kimi qəbul etməyə başlamışlar. Bu gün isə bəşəriyyət həqiqətlə bağlı fikirlərin dəyişdiyi yeni bir dönəmə - posthəqiqət dönəminə qədəm qoymuşdur. Elə bir dönəm ki, elm və obyektiv faktlar etibarsızlaşmış, yalanlar geniş vüsət almış, hər şeyin əsasında hisslər və irrasional qərarlar dayanmışdır.

Əslində həqiqətin gizlədilməsi və ya insanların şəxsi çıxarlarına uyğun olaraq təhrif edilməsi, habelə məqsədə çatmaq naminə yalan və saxtakarlıqdan istifadə bəşəriyyət üçün yeni hadisə deyil. Ta qədim zamanlardan sözü gedən davranışlar insan həyatının bir parçası olmuşdur. Lakin insanlar onu qeyri-əxlaqi davranış tərzi kimi qiymətləndirmiş, hər zaman öz yalanlarının ortaya çıxmasından narahatlıq hissi keçirmişlər. Bu baxımdan həqiqətin gizlədilməsi və fərqli formada təqdimi insanların zəruri durumlarında həyata keçirilirdi. Bu gün isə yalanlar etik sərhədləri aşaraq normal insan davranışına çevrilməktədir. Yalan insan həyatına o qədər sirayət etmişdir ki, insanlar həqiqətə uyğun bir şey

söyləyərkən "düzünü desəm", "doğrusu" və s. bu kimi ifadələrdən istifadə edərək qarşısındakını dediklərinin doğruluğuna inandırmağa çalışır [3, s.8].

Tarixən yalanlarla müxtəlif manipulyativ fəaliyyətlər təşkil edən insanların sosial media ilə təmin olunması isə bu gün bizi posthəqiqət dövrünə çatdırmış oldu. Texnoloji inkişafın olmadığı dövrlərdə yalanlar lokal şəraitdə fəaliyyət göstərirdisə, bu gün dünyanın hər bucağına yayılmaq imkanına sahibdir. Beləliklə, xəbərlərin qısa zaman kəsiyində yayılmasına səbəb olan sosial media platformaları posthəqiqət dönəminin əsas silahı kimi insanlar üzərində hökmranlıq edərək nəinki onların obyektiv həqiqət anlayışını məhv etdi, eyni zamanda şüurlarını transformasiyaya uğradaraq qərar vermə mexanizmlərini dəyişdirdi.

**Doğruluq, gerçəklik həqiqət.** Posthəqiqət (Post-truth) anlayışı ilk dəfə XX əsrdə elmi ədəbiyyata daxil edilmiş, XXl əsrdən etibarən isə dünya miqyasında məşhurluq qazanmışdır. Dilimizə həqiqət sonrası, gerçək ötəsi və s. formalarda tərcümə olunan bu populyar anlayışın daha dəqiq anlaşılması üçün ilk öncə gerçəklik, doğruluq və həqiqət anlayışlarının fərqini və fəlsəfi mahiyyətini müəyyənləşdirmək məqsədəuyğundur. Bu addımı şərtləndirən amillərdən biri sözügedən anlayışların bəzən eyni mənalı söz kimi işlədilməsidirsə, digəri "truth" sözünün işlənmə yerindən asılı olaraq fərqli mənalara gəlməsidir. İngilis dilində "true friend" həqiqi dost anlamına gələrkən, "it is true that he is writing philosophical article now" cümləsi "onun indi fəlsəfi məqalə yazdığı doğrudur" mənasını verməkdədir. Bu baxımdan istər gerçəklik və həqiqət, istərsə də doğruluq və həqiqət arasındakı əlaqə və münasibətlərin dəqiq araşdırılması, bununla da post-truth ifadəsinin tərcüməsi zamanı ortaya çıxmış fikir ayrılıqlarına son verilməsi mühüm fəlsəfi əhəmiyyət daşımaqdadır.

Ontoloji nöqteyi-nəzərdən yanaşdıqda gerçəklik "qavrayışdan və zehindən asılı olmayaraq mövcud olan, obyektiv varlığa malik olan, faktiki surətdə varlığını sürdürən şey üçün istifadə olunan təsvirdir [2, s.761] . Başqa sözlə, gerçəklik "fiziki kainatın birbaşa və ya dolayı olaraq ölçülə bilən yönlərini ifadə edir [2, s.761]. Bedia Akarsu isə gerçəkliyi şüurdan asılı olmadan var olan" şəklində ifadə etmişdir [6, s.79]. Bu təriflərdən yola çıxaraq belə bir ümumi nəticəyə gəlmək olar ki, gerçəklik anlayışının ən başlıca özəlliyi şüurdan asılı olmadan, müstəqil şəkildə var olmasıdır.

Həqiqət ilə sinonim kimi göstərilən digər anlayış isə doğruluq anlayışıdır. "Doğruluq mühakimələrdə özünü göstərir və reallığın intelektual səviyyədə və ya zehnimizdə təsdiqlənməsi ilə bağlıdır" [18, s.230]. Gerçəklik şüurdan asılı olmadan mövcud olduğu halda doğruluq mövcudluğu mövcud olan şey haqqında nəyisə ifadə edən subyektə borcludur. Bu da o deməkdir ki, gerçəklikdən fərqli olaraq doğruluq sözügedən varlıq haqqında var olan, bu biliyə sahib olan, habelə həmin biliyi ortaya çıxaran subyekt ilə əlaqəli olan epistemoloji anlayışdır [19, s.19]. Ümumən deyə bilərik ki, bir şeyin doğru olması üçün onun mühakimə xarakteri daşıması lazımdır. Məsələn, "dünya" haqqında doğru və ya yanlışdır deyə hər hansı qiymətləndirmə apara bilmərik. Çünki dünya hökm deyil, anlayışdır. Lakin "dünya yuvarlaqdır" deyiriksə, artıq anlayışdan hökmə keçmiş oluruq ki, bu zaman "doğrudur" və ya "yanlışdır" demək haqqını əldə etmiş oluruq. Bu mənada gerçəklik və doğruluq anlayışları bir-biri ilə əlaqəli olan və bir-birini şərtləndirən anlayışlar kimi çıxış edir. Gerçəklik obyektiv şəkildə mövcud olsa da, onun məna qazanması onun haqqında irəli sürülən doğru mühakimələrdən asılıdır. Məsələn, ağac öz-özlüyündə gerçəkdir, lakin barəsində hər hansı doğru mühakimə irəli sürülmədikcə bu gerçəyin insan şüurunda anlam qazanması mümkünsüzdür. Yəni biz "ağac kök, gövdə, budaqlar və yarpaqlardan təşkil olunan bitkidir" deyiriksə, bu doğru mühakimədir və yalnız bundan sonra gerçək olan ağacın adekvat obrazı və mənası insanın gözü önündə canlanmış olur. Digər tərəfdən bu və ya digər mühakimənin doğruluğu və yanlışlığı bilavasitə obyekt və predmetlərin gerçək xüsusiyyətlərinə dayanaraq müəyyənləşdirilir ki, bu da doğruluq və gerçəklik anlayışlarının bir-biri ilə sıx əlaqəsinin başlıca göstəricisidir.

Həqiqət anlayışına gəldikdə isə deyə bilərik ki, daha çox "xarici aləmin insan zehnindəki qarşılığı" [5, s.28] kimi qəbul olunsa da həqiqət digər iki anlayışa nisbətdə daha çox müzakirə doğuran, fərqli dönəmlərdə fərqli formada anlaşılmış anlayışdır. Antik dövrdə Aristotel "Var olan bir şeyi olmamış, ya da var olmamış bir şeyi var olmuş kimi göstərmək yanlışdır. Bunun əksinə olaraq var olan şey həqiqətdir, var olmayan şey isə deyildir" [1, s.102] deyərək həqiqəti gerçəkliyə uyğunluqla əlaqələndirirdisə, orta əsrlərdə həqiqət daha çox dini formada təzahür edirdi. Bütün hakimiyyəti öz əlində cəmləşdirən kilsə insanları elmdən, fəlsəfədən çəkindirir, təhrifə uğradılmış dinin saxta müddəalarını cəmiyyətə sataraq fanatizmin köklərini dərinə doğru çəkib aparırdı. Hər şeyin dini kontekstdə şərh edildiyi həmin dövrdə "kilsənin təsirilə müqəddəs metafizik qüvvələr və hadisələr (mələklər, möcüzələr) əlçatmaz həqiqətdən daha önəmli mövqeyə sahib idi [3, s.187]. 16-17ci əsrlərə qədər varlığını qoruyan bu inanc məzmunlu həqiqət anlayışı sözügedən dövrdən etibarən rasional şəkildə sorğulanmağa başlamış, Dekart, Hobbs, Bekon kimi filosoflar tərəfindən fərqli cür mənalandırılmışdır. Postmodernizmin gəlişi isə həqiqətin obyektivliyini inkar etmiş, əvəzinə çoxsaylı subyektiv həqiqətləri meydana gətirərək insanların tarixən formalaşmış fikirlərini alt-üst etmişdir. Beləliklə, bu üç anlayış bir-biri ilə əlaqəli görünsə də aralarındakı mühüm fərqlər gözardı olunmamalı, post-truth ifadəsinin dilimizə hərfi tərcüməsi gerçək ötəsi, doğruluq sonrası kimi deyil, həqiqət sonrası kimi tərcümə edilməlidir.

**Posthəqiqət anlayışının mahiyyəti.** 2016-cı ildə Oxford lüğətində ilin sözü seçilmiş posthəqiqət anlayışı "obyektiv faktların ictimai rəyin formalaşmasında emosional yanaşma və şəxsi inancdan daha az təsirli olduğu vəziyyət" kimi xarakterizə olunur [16]. İlk dəfə Steve Tesich tərəfindən elmi ədəbiyyata daxil edilmiş bu anlayış daha sonra R. Keyes, L. Mclntyre və b. mütəfəkkirlərin əsərlərində daha geniş şəkildə şərh olunmuşdur. Başqa sözlə desək, gerçəklərin əhəmiyyətini itirdiyi bu dövrdə insanlar acı verə biləcək həqiqətlərdənsə onlara xoş əhval – ruhiyyə verəcək yalanları daha üstün tuturlar və bununla da rasional qəmginlikdən irrasional məmnunluğa keçid edirlər. S. Tesich anlayışı "A goverment of lies"(yalanlar hökuməti) adlı məqaləsində anlayışı belə mənalandırır: "Bizlər sürətli bir şəkildə totalitar canavarların yalnız röyalarında ağızlarını sulandıracaq bir xalq prototipi halına gəldik. Bütün diktatorlar bu günə qədər gerçəyi təzyiq altında saxlamağa məcbur olmuşdur. Biz isə etdiklərimizlə artıq bunun gərəkli olmadığını, artıq həqiqəti önəmli olmaqdan çıxaran bir ruhsal mexanizmə sahib olduğumuzu söyləyirik. Biz azad insanlar olaraq posthəqiqət çağda yaşamaqa müstəqil şəkildə qərar verdik [20, s.12-14].

Posthəqiqət anlayışı 1992-ci ildə təkcə Tesich deyil, eyni zamanda Malpas adlı tədqiqatçı tərəfindən də işlədilmişdir. Malpasın fikrincə, fəlsəfi fikir tarixində zaman zaman həqiqət anlayışı barədə müzakirələr aparılsa da, onun varlığı və ona çatmağın mümkünlüyü haqqında heç bir zaman şübhə olmamışdır. Həqiqət modernizmin ortaya çıxardığı yeniliklər sonrasında problematik duruma düşmüş, postmodernizm dövründə isə tamamilə subyektivləşdirilmişdir [14, s.288]. Bu mənada deyə bilərik ki, Malpasa görə posthəqiqət çağı eyni zamanda posthəqiqət çağıdır.

Posthəqiqət dönəmində söylənilən hər bir yalan, simulyasiya edilmiş gerçəklik bilavasitə insanların mənafelərindən qaynaqlanır. İnsanlar öz şəxsi çıxarları üçün gerçəkliyi fərqli formada təqdim edirlər. "Posthəqiqət öz şəxsi fikirləri ilə həqiqət arasında bir uyğunsuzluq gördükdə insanların fikirlərini həqiqətə görə dəyişdirmək əvəzinə həqiqəti öz fikirlərinə uyğun gəlməsi üçün dəyişdirməyi daha məqbul hesab etməsidir [15, s.5-6]. Lorentenin fikrincə isə posthəqiqət dövründə insanlar üçün önəmli olan gerçəkdə nə olduğu deyil, olanın necə izah edilməsidir [13, s.9]. Tədqiqatın əvvəlki hissəsində göründüyü kimi posthəqiqət təkcə siyasi-fəlsəfi anlayış deyil, eyni zamanda müəyyən bir dövrü ifadə edən xüsusi termindir. Lokal anlayışlıq səviyyəsindən geniş dövrü xarakterizə edən terminlik səviyyəsinə gedən yol isə müasir cəmiyyətdə

həqiqətin anlam dəyişkənliyinin kütləvi hal almasıdır. Bu baxımdan deyə bilərik ki, posthəqiqət çağı həqiqətin transformasiyasının sayılı insanların deyil, bütöv bir cəmiyyətin seçimi olduğu dövrü xarakterizə etməkdədir.

**Posthəqiqət ifadəsində "post" ön şəkilçisinin mənası.** Posthəqiqət anlayışının düzgün anlaşılması "post" ön şəkilçisinin posthəqiqət ifadəsi daxilində hansi mənaya gəlməsindən əhəmiyyətli dərəcədə asılıdır. Məlumdur ki, "post" ön şəkilçisi daha çox "sonra" mənasını verir və zamanlı sıralamanı formalaşdırır. Bu da o deməkdir ki, post prefiksi qoşulduğu kökdə göstərilən dövrdən sonranı ifadə etməkdədir. Məsələn, postmüharibə deyərkən müharibədən sonrakı dövr, postindustrial dedikdə sənaye cəmiyyətindən sonrakı dövr nəzərdə tutulur [11, s.741]. Lakin post prefiksinin mənası bununla yekunlaşmır. Unutmaq olmaz ki, onun həm də "yenidən işlənmiş versiya" (the revised version) mənası da vardır. Başqa sözlə desək, post ön şəkilçisi qoşulduğu kökdə yer alan ideyanın, nəzəriyyənin, tənqid olunmuş, genişləndirilmiş və yenilənmiş mənasını da ifadə edir. Məsələn, postfeminizm dedikdə, feminizmin artıq aktuallıq dərəcəsini itirdiyi, qadın hüquqları uğrunda aparilan mücadilənin uğurlu olduğu və bundan sonra diqqətin fərdi seçimlər və həyat tərzinə yönəlməli olduğu fikri başa düşülür. Bu fikirlər feminizmin bir qədər genişləndirilmiş və yeni ünsürlərlə bəzədilmiş formasıdır. Postfeminizm eyni zamanda feminizmin çatışmayan cəhətlərini tənqid edərək göstərir ki, klassik feminizm qadınları sadəcə qul və qurban kimi təqdim edir, yanlış olaraq onları cəmiyyətin bir çox sahələrindən təcrid edilmiş varlıq kimi qələmə verir [17, s.402] . Bu isə onu göstərir ki, post ön şəkilçisi qoşulduğu kökdə yer alan nəzəriyyəni tənqid edəcək, yeniləyəcək və genişləndirəcək mənaya da sahibdir. Fikrimizcə, post prefiksinin məhz bu mənası posthəqiqət anlayışına uyğun gəlir. Çünki əgər posthəqiqət həqiqətdən sonrakı dövr mənasını verirsə, bu artıq müasir dünyamızda həqiqətin istifadəsiz hala gəlməsi deməkdir ki, bu da qəbul edilməzdir. Çünki insanlar hər zaman həqiqəti bilmək istəyər və həqiqətsiz öz dünyalarına məna verə bilməyəcəklərini düşünərlər. Günümüzdə insan şüurunun qərar vermə proseslərinə rahat şəkildə müdaxilə etməyi bacaran manipulyatorlar da bunun fərqindədir. Onların məqsədi həqiqəti yox etmək deyil, simulyasiya etmək, yəni həqiqi olmayan şeyləri insanlara inandırıcı şəkildə sataraq saxta həqiqət ideyasını formalaşdırmaqdır. Başqa sözlə desək, posthəqiqət dövründə həqiqət nə yox olur, nə də gizlədilir, simulyasiya edilir. "Gizlətmək sahib olunan şeyə sahib deyilmiş kimi davranmaqdır. Simulyasiya etmək isə sahib olunmayan şeyə sahib imiş kimi davranmaqdır. Birincisi yox etməyə, ikincisi var etməyə hesablanmış addımdır" [8, s.16].

**Posthəqiqətin tarixi kökləri.** Posthəqiqət anlayışının ifadə etdiyi məna və doğurduğu vəziyyətlə yanaşı onun hansı şəraitdə meydana çıxması, hansı konkret-tarixi dövrün davamı kimi formalaşması olduqca problematik müzakirə mövzusudur. Obyektiv həqiqətlərin sarsıdılması, subyektivizmin ön plana keçməsi postmodernizmin məhsulu olduğu üçün bir çox mütəfəkkirlər posthəqiqəti postmodernizmin meydana gətirdiyi "subyektiv həqiqət" anlayışının davamı olaraq qiymətləndirirsə, bir çoxları da onlar arasında tarixi əlaqəni qəbul etmir. D. Dennetin fikrincə posthəqiqətin qaynağı məhz postmodernizmdir və postmodernistlər obyektiv həqiqətə yersiz şübhə duymağı, habelə obyektiv həqiqətə aşağılayıcı nəzərlərlə baxmağı təqdiredici vəziyyət kimi cəmiyyətə çatdırdıqları üçün məsuliyyət daşıyırlar [10].

Digər yanaşmaya görə postmodernizmlə posthəqiqət arasında hər hansı birbaşa səbəbiyyət əlaqəsinin olmasından danışmaq absurddur. Ferraris, Latour kimi mütəfəkkirlərin fikrincə postmodernizm rasionalizmi, obyektivizmi sarsıtmaqla ağılın, biliyin, həqiqətin cəmiyyətdə hakimiyyətinə tamamilə son qoymaq məqsədi güdməmiş, sadəcə insanların mütləq həqiqətlərə şübhəsiz və korkoranə inanmasını aradan qaldırmağa çalışmışdır. Postmodernizm qeyd-şərtsiz qəbul edilən həqiqət haqqında şübhə formalaşdırırdısa, posthəqiqət daha da irəli gedərək onları təkzib etməyə başladı [7].

Üçüncü yanaşmaya görə isə postmodernizm heç bir şəkildə posthəqiqətin istinad

nöqtəsi ola bilməz. Çünki tarixi anlamda posthəqiqət daha qədim anlayışdır. Hətta israilli tarixçi Y. N. Harari bir qədər də irəli gedərək insanların təbiəti gərəyi posthəqiqətə meylli varlıq olduğunu, bu anlayışın bəşəriyyət üçün yeni anlayış olmadığını iddia edir. Onun fikrincə tarixin istənilən dövründə propaganda və doğru olmayan məlumatların cəmiyyətə sızdırılması mövcud olmuş, bütün dönəmlərdə ilk sırada siyasətçılər olmaqla insanlar yalan vasitəsilə manipulyativ şəraiti formalaşdırmışdır. Bu da ondan irəli gəlir ki, Homo sapiens hər zaman öz gücünü hadisələr uydurmaq və uydurulmuş hadisələrə inanmaqdan almış canlı növüdür [12, s.215-217].

Hər üç yanaşma bir tərəfli xarakter daşısa da fikrimizcə Hararinin dediklərində həqiqət payı daha çoxdur. Sadəcə fərq ondan ibarətdir ki, şərait və tarix posthəqiqətin qlobal xarakterini müəyyənləşdirmiş, əvvəllər daha dar arealda fəaliyyət göstərən bu anlayışa bütün sərhədləri aşmaq imkanı vermişdir. Digər tərəfdən Harari posthəqiqət və propaqanda anlayışları arasındakı fərqi gözardı etmişdir. Fikrimizcə tarixən mövcud olan insanların siyasi oyunları və yalanları posthəqiqətdən daha çox təbliğat anlayışına uyğun gəlir.

**Posthəqiqət (Post-truth) və təbliğat (propaganda).** Posthəqiqət insanları belə bir sualla qarşı-qarşıya qoyur: posthəqiqət yeni epistemoloji mahiyyət kəsb edən müasir anlayışdır yoxsa XX əsrdən etibarən rəsmi şəkildə işlənməyə başlamış, kökləri isə daha qədim dövrlərə qədər uzanan təbliğat termininin fərqli ad ilə təqdimidir? Suala aydınlıq gətirmək üçün təbliğat anlayışının mahiyyətini açmaq vacibdir. Təbliğat nəticəsi öncədən müəyyən edilmiş, müəyyən insan qrupunun fikrinə təsir göstərmək üçün bu və ya digər şəxslər tərəfindən hazırlanmış düşüncənin ifadə edilməsidir [9, s.217]. “Təbliğat mühüm əhəmiyyət kəsb edən fikirləri dəstəkləmək yaxud geniş sferada yaymaq mənasını verir, latınca yaymaq və toxum əkmək anlamlarında işlədilir” [4, s.1]. Lakin təbliğat hər zaman cəmiyyət üçün yeni olan fikrin insanlara qəbul etdirmək cəhdi kimi dəyərləndirilməməlidir. Çünki bu anlayış eyni zamanda cəmiyyətdə var olan, sadəcə insanlar tərəfindən bəyanilməyən şeylərin insanlara xoşagələn formada çatdırılaraq dəyər görməsinə, bununla da idarəçilərin idarəetmə sisteminin nizamlanmasına xidmət edir [4, s.1-2].

Göründüyü kimi posthəqiqət anlayışı kimi propaqanda anlayışı da insanların şüuruna, qərar vermə mexanizmlərinə təsir ilə əlaqəlidir. Hər iki anlayış hissi idraka – duyğulara, emosiyalara nüfuz edərək insanları bu və ya digər məzmunlara inandırmağı bacarır. Digər tərəfdən düşünmədən yaranan kor-koranə inam tənqidi düşüncənin geri plana atılması ilə nəticələnir ki, bu da bu iki anlayışın əsas oxşar cəhətlərindən biridir. Lakin aralarındakı çoxsaylı oxşarlıqların olmasına rəğmən bu iki anlayışı eyniləşdirmək olmaz. Təbliğat anlayışı konkret məqsədə yönəlmiş, sistematik səciyyə daşıyan termindir. “Propaqanda heç bir zaman bilinməzlikdən qaynaqlanmaz. Hər zaman bir niyyəti, planı və məqsədi vardır [4, s.1-2]. Bu baxımdan deyə bilərik ki, propaqandanın insan şüuruna təsiri birbaşa və məqsədyönlüdür. Posthəqiqətin əsas mahiyyəti isə şüurlu olub-olmamasından asılı olmayaraq həqiqətin arxa plana keçməsidir. Təbliğat posthəqiqətə zəmin hazırlayan manipulyativ metod, posthəqiqət isə təbliğatlar nəticəsində ortaya çıxmış “həqiqətdən könüllü imtina” prinsipinin ifadəçisidir. Posthəqiqət təkcə həqiqətin anlam dəyişkənliyi kimi də anlaşılmamalıdır. O eyni zamanda zaman zaman müxtəlif məqsədlər üçün manipulyasiya və propaqandaya məruz qalmış insan şüurunun transformasiyasını əks etdirən sosial-siyasi vəziyyətdir.

**Nəticə**

Bu gün insanların rahatlıqla şəxsi mənafeləri uğruna yalan söyləməsi, həqiqətin bu qədər önəmsizləşməsi göstərir ki, posthəqiqət təkcə sosial-siyasi və fəlsəfi-epistemoloji problem deyil, həmçinin etik problemdir. Rəqəmsallaşan mühit insanları təkcə məlumat bolluğuna, sürətli informasiya mübadiləsinə gətirmir, eyni zamanda onları mənəviyyatın yox olması, mənəvi dəyərlərin əhəmiyyətini itirməsi təhlükəsi ilə qarşı-qarşıya qoyur.

Posthəqiqət dövrünün əsas xüsusiyyətlərindən biri də sosial media vasitəsilə hər kəsin xəbər qaynağına çevrilməsidir. Əvvəllər xəbərin yaradılması və yayılması bəlli bir kütlə

tərəfindən həyata keçirilirdisə, bu gün artıq hər kəs istədiyi tərzdə xəbər paylaşaraq gündəmə gəlməyi bacarır. Süni intellekt vasitəsilə hazırlanmış saxta video və şəkillər (deepfake), insanlara öz düşüncələrinə uyğun məlumatları təqdim edib etimad qazanan qapalı informasiya mühitləri (echo chambers) isə müasir dövrdə insanları istənilən məqsədli, manipulyativ məlumatlara inandırılması prosesini daha da rahatlaşdırır.

Bütün bunların fonunda Homo Sapiens tarixən formalaşdırdığı dəyərlərin destruksiyası ilə üz-üzə qalmışdır. Bu acınacaqlı durumdan çıxmaq üçün insanlar toplum olaraq hərəkətə keçməli, tənqidi düşüncəni formalaşdırmalı, habelə media savadlılığını artıraraq paylaşılan xəbərlərin hansı şəraitdə və hansı məqsədlə paylaşıldığına diqqət yetirməli, qarşılaşdıqları hər informasiyanı ağlın süzgəcindən keçirməlidir. Yalnız bu proseslərin həyata keçirilməsi saxtalaşan cəmiyyətin xilas yolunu müəyyən edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI


1. Nadir Ç. Propaganda olgusu ve propagandanın amerikanlaşması. Elazığ: Fırat universitesi, sosyal bilimler dergisi, 2014;24(2):239-265
2. Cevizci A. Paradigma felsefe sözlüğü. İstanbul: Paradigma Yayınları, 2005, 1911 s.
3. Keyes R. Hakikat sonrası çağ. Günümüz dünyasında yalançılık ve aldatma. İzmir: Tudem yayınları, 2017, 260 s.
4. Aristotel. Metafizika (tərcümə edən Arif Tağıyev). Bakı:Mütərcim, 2008, 356 s
5. Alpay Y. Yalanın siyaseti. İstanbul Destek yayınları, 2021, 184 s.
6. Akarsu B. Felsefe terimleri sözlüğü. Ankara:Türk dil kurumu yayınları, 1975, 233 s.
7. Akyasan D., Sungur E. Görünüş və gerçəklik arasındakı hakikat sonrası: Post-truth söyleme eleştirel yaklaşım. Muhakeme dergisi, 2024;7(2):175-190
8. Baudrillard J. Simulyakr ve simulyasyon. Doğu-Batı yayınları, 2003, 223 s.
9. Cantril H. Propaganda analysis. The English jurnal, 1938;27(3)
10. Dennet D. Daniel Dennett: ‘I begrudge every hour I have to spend worrying about politics. Erişim Tarihi: 05.03.2023.
11. Hamawand Z. Prefixes of spatiality in English. A study in cognitive linguistics. Theory and Practice in Language studies, 2013;3(5):736-747.
12. Harari Y.N. 21-ci yüzyıl için 21 ders. İstanbul, 2018, 332 s.
13. Lorente A. The Post-truth era: reality vs perception. UNO (27), 2017;8-10
14. Malpas J. Retrieving truth: modernism, postmodernism and the problem of truth. Soundings: An interdisciplinary journal, 1992;75(213):287-306
15. McIntyre L. Post- truth. Cambridge: The MİT press, 2018, 240 s.
16. Oxford Languages. Word of the Year 2016 “Post-truth”. 2023
17. Prazmo E. The post-fact world in a post-truth era: the productivity and emergent meanings of the prefix post in contemporary English. Cambridge university press, 2019;393-412.
18. Timuçin A. Felsefe sözlüğü. İstanbul: Bulut yayınları, 2004, 553 s.
19. Tepe H. Platondan Habermasa: felsefede doğruluk ya da hakikat. Ankara: Bilgesu yayınları, 2016, 247 s.
20. Tesich S. A government of lies. Nation, 1992;254(1):12-14.


**Muhammadali Elman DADASHOV**
PhD student at the Azerbaijan National Academy of Sciences

## FROM TRUTH TO POST-TRUTH: TERMINOLOGICAL CHANGE AND CULTURAL TRANSFORMATION

**Summary**

The concept of post-truth, first introduced into academic literature in 1992 by Steve Tesich, refers to a social condition in which individuals prioritize personal beliefs shaped by feelings and emotions over objective facts. An abundance of information, widespread disinformation, and the blurring of boundaries between data and knowledge are characteristic features of the post-truth era. In this period, marked by the weakening of critical thinking, people are confronted with vast amounts of information and tend to behave irrationally, accepting information they find agreeable without engaging in analytical reasoning. Social media platforms serve as the primary technological tools for disseminating falsehoods and fabricated news produced by society, thereby transforming truth. When individuals form judgments about the validity of information based on their emotions, they like and share such content on social media, influencing others to believe in its authenticity. As a result, even false information, once accepted by large audiences, gives rise to the notion of a "pseudo-truth" within society. This study focuses on the meaning and essence of the concept of post-truth, as well as its relationship with the notions of reality and truth, aiming to establish an accurate translation of the term "post-truth" into our language. The article examines the semantic meaning of the prefix "post," emphasizing that the concept of post-truth does not mean "after truth," but rather signifies the loss of truth's former authority and its transformation.

**Keywords**: post-truth, reality, truthfulness, falsehood, social media.

**Мухаммедали Эльман ДАДАШОВ**
Докторант Национальной академии наук Азербайджана

## ОТ ИСТИНЫ К ПОСТПРАВДЕ: ТЕРМИНОЛОГИЧЕСКАЯ ИЗМЕНЧИВОСТЬ И КУЛЬТУРНАЯ ТРАНСФОРМАЦИЯ

**Резюме**

Понятие постправды, впервые введённое в научный оборот в 1992 году Steve Tesich, обозначает социальное состояние, при котором люди отдают предпочтение личным убеждениям, сформированным на основе чувств и эмоций, а не объективных фактов. Изобилие информации, массовая дезинформация, а также размывание границ между данными и знанием являются характерными чертами эпохи постправды. В этот период, отмеченный ослаблением критического мышления, люди сталкиваются с огромным объёмом информации и, действуя иррационально, принимают те сведения, которые соответствуют их взглядам, без какого-либо аналитического осмыслесвяз. Социальные медиа выступают в качестве основного технологического инструмента распространения лжи и фальшивых новостей, производимых обществом и трансформирующих истину. Когда люди, руководствуясь своими эмоциями, приходят к выводу о достоверности той или иной информации, они отмечают её как понравившуюся и делятся ею в социальных сетях, тем самым убеждая других в её правдивости. В результате даже ложная информация, будучи принятой широкими массами, формирует в обществе феномен «псевдоистины». Данное исследование обращает внимание на значение и сущность понятия постправды, а также на его связь с категориями реальности и истины, предлагая корректный перевод термина «post-truth» на наш язык. В статье исследуется семантическое значение префикса «post», подчёркивается, что понятие постправды означает не «после истины», а скорее утрату истиной прежнего авторитета и её трансформацию.

**Ключевые слова:** постправда, реальность, истинность, ложь, социальные сети.

**Daxil olub:** 04.05.2026